# Bakı Qızlar Universitetinin

# Keyfiyyət Təminatı Siyasəti

**Bakı Qızlar Universitetinin**
**Elmi Şurasının 30.11.2023-cü il**
**tarixli iclasının qərarı ilə (protokol № 4)**
**Təsdiq edilmişdir.**

**Tarix___________**
**İmza___________**

**Bakı - 2023**

## MÜNDƏRİCAT

**I. ÜMUMİ MÜDDƏALAR, MƏQSƏDLƏR VƏ PRİNSİPLƏR......................................3**
1.1. Ümumi müddəalar....................................................................................................3
1.2. Əhatə dairəsi və prinsiplər........................................................................................3
**II. İDARƏETMƏ........................................................................................................4**
2.1. Rektora hesabatlılıq prinsipi.....................................................................................4
**III. DAXİLİ KEYFİYYƏT TƏMİNATI ÜZRƏ YANAŞMA VƏ STANDARTLAR.........................................................................................................4**
3.1. Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə...............................................4
3.2. Professor-müəllim heyəti peşəkarlığı..........................................................................5
**IV. KEYFİYYƏTƏ NƏZARƏT MƏRKƏZİNİN FƏALİYYƏTİ...................................5**
4.1. Məqsəd.....................................................................................................................5
4.2. Fəaliyyət istiqamətləri.................................................................................................5
**V. Keyfiyyət Mədəniyyəti.........................................................................................6**
**VII. İSTİNAD EDİLƏN STANDART VƏ SƏNƏDLƏR...................................................6**
**VIII. Fənn sillabusu nümunəsi....................................................................................7**
**IX. Fənn Proqramı nümunəsi....................................................................................11**
**X. Daxili Keyfiyyət Təminatını ölçmək üçün mexanizmlər............................................13**
10.1. Tələbələrin məmnunluq səviyyəsi ölçülməsi (Akademik tədris keyfiyyəti, müəllim-tələbə əlaqəsi, təhsil infrastrukturu və s.)......................................................13
11.2. Keyfiyyət Təminatı və Monitorinq şöbəsinin Pedaqoji təcrübəni bitirmiş tələbələrdən.........................................................................................................13
12.3. Professor-müəllim heyyətinin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi...............................................................................15
13.4. Tələbələrin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi.........................................................................................................17
14.5. Dərslərin Keyfiyyətinin ölçülməsi məqsədi ilə tərtib edilmiş sorğu............................19
15.6. İmtahanların təşkili ilə bağlı sorğu.. ........................................................................21

# I. ÜMUMİ MÜDDƏALAR, MƏQSƏDLƏR VƏ PRİNSİPLƏR

## 1.1. Ümumi müddəalar

1.1. Bakı Qızlar Universitetinin struktur bölməsindən biri olan Keyfiyyətin təminatı və monitorinqi şöbəsi bu Əsasnamə ilə müəyyən edilən səlahiyyətlər çərçivəsində Avropa təhsil sisteminə inteqrasiya şəraitində Universitetdə beynəlxalq standartlara cavab verən yüksək səviyyəli kadrların hazırlanması, həmçinin, Universitetin fəaliyyəti ilə bağlı tədrisin təşkili, kreditlərin tanınması və tələbələrin attestasiyası sahəsində tədris-metodiki işlərin koordinasiyasını, planlaşdırılmasını, idarə olunmasını və onlara nəzarəti həyata keçirir.

1.2. Keyfiyyətin təminatı və monitorinqi şöbəsi öz fəaliyyətində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, elm və təhsil sahələrinə aid Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin aidiyyəti qərar və sərəncamlarını, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəs"ni, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"ı, təhsillə bağlı digər normativ-hüquqi aktları və Bakı Qızlar Universitetinin müvafiq normativ-hüquqi sənədlərini əldə rəhbər tutur.

1.3. Keyfiyyətin təminatı və monitorinqi şöbəsi elm və təhsil müəssələri ilə, həmçinin Universitetin bütün fakültələri, kafedraları və digər struktur bölmələri ilə əlaqəli fəaliyyət göstərir və mütəmadi olaraq yerinə yetirilən işlər haqqında rektorluğa müvafiq hesabatlar təqdim edir.

Mövcud keyfiyyət təminatı siyasəti Universitetin Strateji inkişaf planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. Tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemi tələbələrin tədris prosesində daha fəal iştirakına şərait yaratmaqla onların motivasiyasının yüksəldilməsinə xidmət edir, onlarda özünütəhlil, müstəqil düşüncə qabiliyyətini formalaşdırmaqla yanaşı mövcud vəziyyəti təhlil edib qiymətləndirmək qabiliyyətini aşılamalıdır.

**Universitetin keyfiyyət təminatının məqsədləri:**

1. Tədris proqramlarının Dövlət təhsil stadartlarının tələblərinə uyğunluğunun təmin edilməsi.
2. Universitetdə keyfiyyət mədəniyyətinin formalaşdırılmasına nail olmaq.
3. Struktur bölmələr, professor-müəllim heyəti və təhsilalanlar arasında qarşılıqlı sağlam münasibətin qurulmasına dəstək vermək.
4. Tədris prosesinin keyfiyyətinin artırılmasına nail olmaqla Universitetin ölkə və beynəlxalq səviyyədə rəqabət qabiliyyətini yüksəltmək;
5. Avropa Standartlarına və Təlimatlarına uyğun olaraq beynəlxalq və milli tələbləri nəzərə alaraq vahid daxili keyfiyyət təminatı sistemi işləyib hazırlamaq;
6. Universitetdə keyfiyyət təminatı mədəniyyəti haqqında məlumatlılığı artırmaq;
7. Daxili keyfiyyətin yüksəldilməsinə, hesabatlılığın artırılmasına və bununla da, keyfiyyət standartlarının praktiki tətbiqinə istiqamət vermək;
8. Maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini qarşılamaq məqsədilə Universitetdə keyfiyyət təminatı sisteminə uyğun olaraq fəaliyyətlərin sistemləşdirilməsinə, təkmilləşdirilməsinə və hesabatlılığın artırılmasına yönəlmək;
9. Maraqlı tərəflərin, xüsusən də tələbə və işçi heyyətinin məmnunluğunu artırmaq;

## 1.2. Əhatə dairəsi və prinsiplər

Mövcud Keyfiyyət Təminatı Siyasəti Universitetin bütün şöbə və struktur bölümlərində keyfiyyət idarəetmə sisteminin strukturlaşdırılması və idarə edilməsi zamanı Azərbaycan Dövlətinin təhsil siyasəti və müasir keyfiyyət idarə edilməsi anlayışına əsaslanır və bütün əməkdaşlar tərəfindən qəbul edilən əsas elementləri izah edir.

Universitetmizin əsas məqsədlərindən biri tələbələrin cəmiyyətdə fəal vətəndaş olmağa və gələcəkdə karyera qurmağa hazırlanması, şəxsiyyət kimi inkişaf etmələrinə töhfə verilməsi, müasir və geniş biliklər bazasının yaradılması, tədqiqat və innovasiya yanaşmalarının stimullaşdırılmasıdır.

Keyfiyyət təminatı məsələlərində bütün maraqlı tərəflərin (tələbə, işçi heyyəti, işə götürənlər və s.) keyfiyyət anlayışına müxtəlif aspektlərdən yanaşması nəzərə alınmalıdır. Keyfiyyət təminatı sistemi elə bir tədris mühiti təmin etməlidir ki, tədris proqramların məzmunu, biliklərin əldə edilməsi imkanları və resurslar nəzərdə tutulmuş məqsədlərə uyğun olsun.

**Universitet keyfiyyət təminatında aşağıdakı prinsiplərə əsaslanır:**

- Universitet göstərdikləri təhsil xidmətlərinin keyfiyyət təminatına birbaşa cavabdehlik daşıyır;
- Keyfiyyət təminatı Universitetdə davamlı şəkildə hər bir sahəni əhatə edərək həyata keçirilir;
- Keyfiyyət təminatı sistemi keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsini dəstəkləyir;
- Keyfiyyət təminatı tələbələrin, digər maraqlı tərəflərin və cəmiyyətin ehtiyaclarını və təhsildən gözləntilərini nəzərə alır.
- Universitetin bütün fəaliyyətlərinə tətbiq edilən, Universitetin Strateji İnkişaf planına və onun məqsədlərinə, davamlı inkişafına xidmət edən və ictimaiyyət üçün açıq olan Keyfiyyət təminatı siyasətinin hazırlanması və bütün heyətin bu haqda məlumatlandırılması.

## II. İDARƏETMƏ.

### 2.1. Rektora hesabatlılıq prinsipi

- Şöbə rəhbəri şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

- Şöbənin əməkdaşları arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət edilməsinə nəzarət edir və davranışlarının etik davranış qaydalarına uyğunluğunu müntəzəm təmin edir, həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlalarını və digər sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

- Universitet rektorunun tapşırığı ilə dövlət orqanlarında və təşkilatlarda keçirilən tədbirlərdə Şöbəni təmsil edir;

- Öz səlahiyyətləri daxilində bu Əsasnamə ilə müəyyən edilmiş qaydada beynəlxalq əməkdaşlığa dair danışıqlar aparır və beynəlxalq tədbirlərdə iştirak edir;

- Şöbənin fəaliyyəti barədə Universitet rektoruna mütəmadi olaraq hesabatlar və məlumatlar verir;

## III. DAXİLİ KEYFİYYƏT TƏMİNATI ÜZRƏ YANAŞMA VƏ STANDARTLAR

3.1. Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə

Tələbəyönümlü təhsil və tədris tələbələrin motivasiyanın artırılması, özünü təhlil etməsi və təhsil prosesinə cəlb olunmasında vacib rol oynayır. Bu səbəbdən, tədris proqramlarının tərtibi və tədrisi, eləcə də nəticələrin qiymətləndirilməsi diqqətlə nəzərdən keçirilməlidir.

Universitetin Keyfiyyətə Nəzarət Mərkəzinin əsas məqsədlərindən biri tələbələrin ehtiyac və gözləntilərini müəyyən etmək və bu gözləntilərin qarşılanmasını təmin etmək üçün lazımi tədbirləri həyata keçirməkdir. Bu çərçivədə, hər il müntəzəm olaraq tələbə, akademik və inzibati heyyətə məmnuniyyət anketləri əsasında sorğular keçirilir və nəticələr Rektor və bölmə rəhbərlərinə təqdim olunur. Təhlil nəticəsində təkmilləşdirməyə ehtiyac olan bölmələrin rəhbərlərindən bu istiqamətdə tədbirlər planı tələb olunur.

Tələbəyönümlü təhsil və tədrisin həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur:

- ehtiyac olduğu hallarda tədrisin müxtəlif yollarla həyata keçirilməsini
- nəzərdən keçirmək və tətbiq etmək;
- tədris formalarını və pedaqoji metodları daim qiymətləndirmək və dəyişən
- tələblərə uyğunlaşdırmaq;
- müəllimdən müvafiq təlimat və yardım almaq şərti ilə tələbələrdə müstəqil
- düşünmək qabiliyyətini stimullaşdırmaq;
- tələbə və müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında
- qurulmasını təmin etmək;

- tələbələrin şikayətlərinə baxılması üçün müvafiq proseduralar yaratmaq.

**3.2. Professor-müəllim heyətinin peşəkarlığı**

**Dərs prosesi monitorinqin əsas məqsədləri:**

a) professor-müəllim heyətinin pedaqoji və peşəkar inkişafına dəstək göstərmək və heyəti Universitetin bu sahədəki gözləntiləri ilə tanış etmək;

b) Strateji İnkişaf Planında bu istiqamət üzrə qarşıya qoyulan məqsədlərə çatmaq üçün Universitetin və professor-müəllim heyətinin birgə fəaliyyətini təminetmək;

c) kadr potensialının inkişafı vasitəsilə tədrisin keyfiyyətinə müsbət təsir etmək;

d) təlim ehtiyacları müəyyən etmək.

e) müəllim heyətinin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi;

f) tədris və tədqiqat istiqamətləri arasında əlaqənin gücləndirilməsinə yönəlmiş elmi fəaliyyətin həvəsləndirilməsi;

h) tədrisdə yeni texnologiya və innovasiyaların tətbiq olunması.

## IV. KEYFİYYƏTƏ NƏZARƏT MƏRKƏZİNİN FƏALİYYƏTİ

**4.1. Məqsəd**

1. Universitetdə keyfiyyət mədəniyyətinin formalaşdırılmasına nail olmaq.
2. Struktur bölmələr, professor-müəllim heyəti və təhsilalanlar arasında qarşılıqlı sağlam münasibətin qurulmasına dəstək vermək.
3. Təhsil proqramları və tədris-metodik təminatın hazırlanması, təsdiqi olunması və dövri olaraq monitorinqi üçün prosedurların-qaydaların hazırlanmasına və onun düzgün icrasına nəzarət etmək.

**4.2. Fəaliyyət istiqamətləri**

Keyfiyyətə Nəzarət Mərkəzinin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə inkişaf konsepsiyalarının formalaşdırılması və onların həyata keçirilməsinə dair təkliflər hazırlamaqla yanaşı icrasında iştirak etmək;
- professor-müəllim heyyəti tərəfindən tədris olunan fənlərin proqramları və metodik materiallarının keyfiyyəti ilə ekspertizalar təşkil etmək;
- tədris-metodiki işin məzmunu, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələri işləyib hazırlamaq;
- tədris prosesinin monitorinqi və tədris prosesinin təşkilində kafedralara və digər struktur bölmələrə metodiki yardım etmək;
- tədris-proqram sənədlərinin və metodiki materialların işlənib hazırlanmasının keyfiyyətinə nəzarət etmək;
- tədris olunan fənlər üzrə sillabusların müvafiq kafedralar tərəfindən müasir standartlara uyğun olaraq təkmilləşdirilməsini təmin etmək;
- bakalavr və magistrantlar arasında tədrisin keyfiyyəti ilə əlaqədar sorğular keçirmək;
- mərkəzin fəaliyyəti ilə bağlı daxil olan şikayətlərə baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;
- elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı bakalavr, magistrantlar və müəllimlərin təkliflərini toplamaq və ümumiləşdirmək;
- mərkəzin fəaliyyətinin və strukturunun təkmilləşdirilməsinə yönəlmiş təkliflər vermək və rektorluğun bu istiqamətdə verdiyi tapşırıqlarını yerinə yetirmək;
- mərkəzdə xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tətbiq edilən innovasiyaların səmərəliliyinin artırılmasını təmin etmək;
- rektorluğun tapşırığı ilə hesabatlar, arayışlar və məlumatlar hazırlamaq və mərkəzə tapşırılmış digər vəzifələri yerinə yetirmək;
- Təhsil nazirliyinin “Təhsildə Keyfiyyət Təminatı Agentliyi” idarəsinin tələblərinə uyğun olaraq müvafiq hesabatları hazırlayıb Universitetin rəhbərliyinə təqdim etmək.

Tədris proqramlarının müntəzəm olaraq monitorinqinin aparılması, nəzərdən keçirilməsi və düzəlişlərin edilməsində məqsəd tədris prosesinin lazımi qaydada icrasının təmin edilməsi və tələbələr üçün əlverişli tədris mühitinin yaradılmasıdır.

Buraya aşağıdakı məsələlərin qiymətləndirilməsi daxil edilir:

- tədris edilən proqramın həmin sahə üzrə əldə olunan nailiyyətlərin nəticələrini əks etdirməsi və bu fənn üzrə mövcud olan ən son proqramlara uyğun olmasının təmin edilməsi;
- cəmiyyətin dəyişən ehtiyaclarına cavab verməsi;
- tələbələrin proqramdan gözlədikləri nəticələr, onların ehtiyacları və proqramdan məmnunluqları;

Tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə proqramlar daima nəzərdən keçirilərək onlara düzəlişlər edilir. Toplanmış məlumatların təhlili aparılır və proqramın aktuallığını təmin edilməsi üçün müvafiq düzəlişlər edilir. Düzəliş edilmiş proqram ictimaiyyətə təqdim edilir.

**V. Keyfiyyət Mədəniyyəti.** Bakı Qızlar Universitetində keyfiyyət mədəniyyətinin yaradılması və inkişafı, təhsil və idarəetmə sistemlərinin davamlı təkmilləşdirilməsini təmin edən mühüm bir aspektdir. Keyfiyyət mədəniyyəti, universitetin təhsil xidmətlərinin və akademik fəaliyyətlərinin yüksəldilməsi məqsədilə bütün universitet üzvlərinin fəal iştirakını tələb edir. Bu, yalnız idarəetmə səviyyəsində deyil, həmçinin hər bir müəllim, tələbə və işçi tərəfindən güclü əməkdaşlıq və fərdi məsuliyyətlə həyata keçirilməlidir:

1. **Keyfiyyət Mədəniyyətinin Əsas Məqsədi**. Keyfiyyət mədəniyyəti, təhsil və idarəetmə sistemlərinin davamlı təkmilləşdirilməsini təmin etməklə, tələbələrin akademik və peşəkar inkişafını dəstəkləmək məqsədini güdür. Bu məqsədə çatmaq üçün tədris və idarəetmə proseslərinin keyfiyyətinin artırılması vacibdir.
2. **Təhsil Prosesində Əməkdaşlıq və Davamlı Təkmilləşmə**. Təhsil müəssisəsinin müxtəlif bölmələri arasında əməkdaşlıq və qarşılıqlı dəstək təmin edilməsi, tədris və xidmətlərdə davamlı təkmilləşməni mümkün edir. Müəllimlər və idarəetmə heyəti arasında sıx əlaqə qurulmalı, tədris metodları müasir tələblərə uyğun şəkildə yenilənməlidir.
3. **Şəffaflıq və Hesabatlılıq**. Keyfiyyət mədəniyyətinin vacib prinsiplərindən biri şəffaflıq və hesabatlılıqdır. Universitetin tədris və idarəetmə prosesləri açıq və şəffaf olmalı, qərarların qəbul edilməsi və həyata keçirilməsi barədə müvafiq məlumatlar ictimaiyyətə təqdim edilməlidir. Bu, etibarlılığı artırmaqla yanaşı, universitetin bütün fəaliyyət sahələrində dürüstlüyün və açıqlığın təmin edilməsinə xidmət edir.
4. **Tələbə Mərkəzli Yanaşma və Dəstək Xidmətləri**. Tələbələrin təhsil, sosial və şəxsi inkişafını dəstəkləyən xidmətlərin təmin edilməsi keyfiyyət mədəniyyətinin əsas hissəsidir. Akademik məsləhətçilik, karyera inkişafı xidmətləri, psixoloji dəstək və digər xidmətlər tələbələrin təhsil prosesinə olan motivasiyasını artıraraq onların universitetdəki uğurlarına müsbət təsir göstərir. Tələbə mərkəzli yanaşma, təhsil mühitinin fərdi ehtiyaclara uyğun olmasını təmin edir və tələbələrin ən yüksək potensialını ortaya çıxarmağa kömək edir.
5. **Monitorinq və Qiymətləndirmə Mexanizmləri**. Keyfiyyətin davamlı olaraq təmin edilməsi və inkişaf etdirilməsi üçün mütəmadi monitorinq və qiymətləndirmə mexanizmləri yaradılmalıdır. Tələbələrdən, müəllimlərdən və digər universitet üzvlərindən alınan rəy və geri bildirimlər əsasında tədris proqramları və universitetin xidmətləri qiymətləndirilməli və bu məlumatlar inkişaf planlarının formalaşdırılmasında istifadə edilməlidir. Bu mexanizmlər, universitetin fəaliyyətlərinin effektivliyini izləyərək, müvafiq düzəlişlərin edilməsi və keyfiyyətin daim artırılması məqsədini daşıyır.

Bu yanaşma, Bakı Qızlar Universitetinin təhsil və idarəetmə sahəsində keyfiyyətin yüksəldilməsi məqsədini güdür və təhsil proseslərində ən yüksək standartların təmin edilməsinə xidmət edir.

**VII. İSTİNAD EDİLƏN STANDART VƏ SƏNƏDLƏR**

Keyfiyyətə Nəzarət Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının "Ali təhsil" haqqında Qanunu, Universitetin Strateji Planı və Mərkəzin təsdiq olunmuş Əsasnaməsinə uyğun olaraq tənzimlənir. Keyfiyyətə nəzarət prosesini səmərəli təşkil olunması üçün dəqiq meyar və üsullar (monitorinq, ölçmə və qiymətləndirmə meyarları daxil olmaqla) tərtib olunmuşdur.

*Fənn sillabusu nümunəsi*

**Azərbaycan Respublikası Elm və Təhsil nazirliyi**
**Fənnin adı (geniş təqvim planı sillabus)**

**Təsdiq edirəm:**

________________

**Kafedrasının müdiri:**

____________________

elmi dərəcə, elmi ad, soyad, a.a

**Kafedra:**
**İxtisas:**
**Tədris ili:**
**Fənnin adı:**
**Təhsil səviyyəsi:**
**Məşğələnin növü:**
**I. Fənn haqqında məlumat:**
**Kodu:**
**Fənnin növü:**
**Prerekvizit fənn:**
**Tədris dili:**
**Tədris yükü (saat) cəmi:**
**Kreditin sayı:**
**II. Müəllim haqqında məlumat:**
**E-mail ünvanı:**
**Əlaqə telefonları:**
**Mobil telefonu:**
**Məsləhət saatları:**
**III. Fənnin təsviri:**
**Fənnin məqsədi:**
**Fənnin vəzifələri:**
**Dərsin nəticələri:**
**Təlim metodları:**

## Dərsə hazırlaşma və onun işlənmə forması

1. Tələbələr semestrin əvvəlində dərs yükünü əhatə edən təqvim planı ilə tanış edilir, hər bir dərsdə növbəti dərsin mövzusu və planı onlara təqdim olunur.
2. Hər bir dərsdə əvvəlki dərslərdə keçilmiş mövzular frontal şəkildə soruşulur.
3. Dərsdə təqdim olunmuş plan üzrə iş sistemli və ardıcıl şəkildə aparılır.
4. Dərsdə hər bir mövzu üzrə tələbələrin əldə etdikləri biliklər müəllimin iştirakı ilə müəyyənləşdirilir.
5. Mövzular üzrə tələbələrin bilik, bacarıqları yoxlanılır.
6. Tələbələrin mövzunu mənimsəmələri ilə bağlı fəallığı auditoriyaya elan edilir.
7. Dərslərin mövzu ardıcıllllığı fərdi iş planında qeyd olunduğu kimi aparılır.

## Qiymətləndirmə forması

Yoxlamalar planaşdırılmış proqram əsasında ancaq keçilmiş mövzular üzrə aparılır. Tələbələrə əvvəlcədən tövsiyə olunmuş ədəbiyyatdan və digər mənbələrdən (akademik nəşrlər, müxtəlif lüğətlər ) istifadə etmək tələb olunur. Ttələbələr bir mənbədən aldıqları məlumatlarla

kifayətlənməməli, müxtəlif mənbələrdən istifadə etməklə daha yüksək bal toplamağa səy göstərməlidirlər.

Tələbə imtahanadək 50 bala qədər bal toplaya bilər: davamiyyət – 10 bal, sərbəst iş – 10 bal, praktik məşğələ – 30 bal.

Tələbələrin cavablarının qiymətləndirilməsi 10 ballıq qiymətləndirmə meyarı əsasında aparılır.

10 ballıq qiymətləndirmənin komponentləri:

10 bal – tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
9 bal – tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiqdir, mövzunu aça bilir;
8 bal – tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
7 bal – tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri izah edə bilmir;
6 bal – tələbənin cavabı, əsasən, düzgündür;
5 bal – tələbənin cavabında bəzi çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
4 bal – tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən səhvlərə yol verir;
3 bal – tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;
1-2 bal – tələbənin mövzudan qismən xəbəri var;
0 bal – tələbə mövzuya hazır deyil və suallara cavab yoxdur.

**Qaydalar**

**Davamiyyət**

Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Davamiyyətin zəif olması təlim keyfiyyətinə mənfi təsir göstərir. Bütün dərslərdə iştirak edən tələbə 10 bal qazanır. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidir. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.

**Dərsə gecikənlər və digər dərs pozuntuları**

Dərsə beş dəqiqədən artıq gecikən tələbə dərsə buraxılmır. Buna baxmayaraq, həmin gün tələbə ikinci dərs saatına buraxılır. Dərsdə kənar söhbətlər tələbələrin fəal dinləmə və qavramasını çətinləşdirir. Odur ki, başqalarının diqqətinin yayınmasına şərait yaradılmamalı, onların hüquqlarının pozulmasına yol verilməməlidir.

Sərbəst iş. Tələbənin sərbəst işi müəllimin auditoriyadan kənar rəhbərliyi ilə müstəqil şəkildə həyata keçirilir. Müəllimin rəhbərliyi ilə yerinə yetirilən sərbəst iş fənnin mənimsənilməsinə dair 5 tapşırıq formasında olur. Sərbəst işə aid edilən beş tapşırıq semestr ərzində tədris edilən mövzuları əhatə etməlidir. Hər tapşırıq 10 balla qiymətləndirilə bilər.

**İmtahanlar.**

Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılmaması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

İmtahan sualları və imtahan cədvəli bir ay qabaqcadan tələbələrin diqqətinə çatdırılır.

İmtahandan əvvəl tələbələrin istək və arzularına uyğun olaraq məsləhət saatları təyin olunur.

İmtahan prosesində isə tələbə 50 bal toplaya bilər. Cəmi: 100 bal.

| | | |
|---|---|---|
| - 51 baldan aşağı | – «qeyri - kafi»; | – F |
| - 51-60 bal | – «qənaətbəxş»; | – E |
| - 61-70 bal | – «kafi»; | – D |
| - 71-80 bal | – «yaxşı»; | – C |
| - 81-90 bal | – «çox yaxşı»; | – B |
| - 91-100 bal | – «əla»; | – A |

**İmtahan qaydalarının pozuntuları**

İmtahan zamanı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır.

Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur.

**Fənni bitirmək qaydası**

Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət 51% və yuxarı hesab edilir, akademik borcu olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**Rəğbətləndirmə və cəzalandırma**

Tələbələrin rəğbətləndirilməsi və cəzalandırılması Universitet Elmi Şurasının qəbul etdiyi təlimatlara əsasən aparılır.

**Dərslərin məzmunu**

a) Mühazirə:

| **Həftə** **Tarix** | **Mövzunun adı** | **Saat** | **Mənbələr** |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

a) Seminar:

| **Tarix** | **qrup** | **Mövzunun adı** | **Saat** | **Mənbələr** |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Əsas ədəbiyyat**

1.
2.
3.
4.
5.

**“____________” fənnindən imtahan sualları**

**1.**
**2.**
**3.**
**4.**
**5.**

**Tərtib edən:**

**Sərbəst tapşırıq mövzuları**

**1.**
**2.**
**3.**
**4.**
**5.**

**Tərtib edən:**

| **Günlər** **Saatlar** | **DƏRS CƏDVƏLİ** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **I gün** | **II gün** | **III gün** | **IV gün** | **V gün** | **VI gün** |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

*Fənn proqramın nümunəsi*

**Fənnin adı**
**(İxtisasın adı və kodu)**

**Hazırlayan:______________**

**İzahat vərəqi**

**I. Kompetensiyalar**
**II. Fənnin proqram hədəfi**
**III. Fənnin məqsədi**
**IV. Fənn üzrə təlim nəticələri**
**V. Qiymətləndirmə metodları**
**VI. Təlim və tədris metodları**
**VII. Fənnin təsviri**

VIII. Mövzular üzrə saatların təxmini bölgüsü

| | | Mövzunun adı | Saat | Mənbələr |
|---|---|---|---|---|
| **1.** | | | | |
| **2.** | | | | |
| **3.** | | | | |
| **4.** | | | | |
| **5.** | | | | |
| **6.** | | | | |
| **7.** | | | | |
| **8** | | | | |
| **9.** | | | | |
| **10.** | | | | |

**Mövzu 1.**
**Mövzu 2.**
**Mövzu 3.**
**Mövzu 4.**
**Mövzu 5.**
**Mövzu 6.**
**Mövzu 7.**
**Mövzu 8.**
**Mövzu 9.**
**Mövzu 10.**
**Mövzu 11.**
**Mövzu 12.**
**Mövzu 13.**
**Mövzu 14.**
**Mövzu 15.**

**3. Tədris fənn proqramının həyata keçirilmə şəraiti**
**3.1. Maddi-texniki təminatına verilən minimum tələblər**
**3.2. Təlimin informasiya təminatı**
**4. Tədris fənninin mənimsənilməsi nəticələrin qiymətləndirilməsi və nəzarət.**
**5. Ədəbiyyat**

## X. Daxili Keyfiyyət Təminatını ölçmək üçün mexanizmlər

**10.1. Tələbələrin məmnunluq səviyyəsi ölçülməsi (Akademik tədris keyfiyyəti, müəllim-tələbə əlaqəsi, təhsil infrastrukturu və s.)**

1) Siz dərslərin məzmunundan, müəllimlərin peşəkarlığından və tədris metodlarından nə dərəcədə məmnunsunuz?

2) Fənn müəllimi dərs materiallarını aydın şəkildə izah edirmi?

3) Fənnin mövzuları maraqlı və faydalı idimi?

4) Tədris metodları və keçilən materiallar sizin üçün nə dərəcədə faydalı oldu?

5) Dərslər nə dərəcədə maraqlı və interaktiv keçilir?

6) Müəllim dərs prosesi zamanı sizin suallarını cavablandırmaqda nə dərəcədə diqqətlidir?

7) Müəllim sizinlə ünsiyyət qura bilirmi?

8) Universitetdə keçirilən sosial tədbirlər tələbə elmi cəmiyyətinə qatılmaq üçün yaxşı imkanlar yaradırmı?

9) Universitetin kitabxanası və resursları nə qədər əlçatandır və keyfiyyətlidir?

10) Dərs prosesi zamanı texniki avadanlıqlar, rəqəmsal resurslar və video materiallardan istifadə etdinizmi?

11) Dərs vəsaitlərinin səviyyəsi sizi qane edirmi?

**10.2. Keyfiyyət Təminatı və Monitorinq şöbəsinin Pedaqoji təcrübəni bitirmiş tələbələrdən**

### SORĞU

1. Pedaqoji təcrübə zamanı təhkim olunduğunuz məktəb və ya mərkəzin fəaliyyətindən

A) Razıyam
B) Narazıyam
C) Qismən razıyam

Digər______________________________________________________

2. Pedaqoqla əməkdaşlıqdan
A) Razı qaldım
B) Narazı qaldım
C) Qismən razı qaldım

Digər_______________________________________________

3. Psixoloqla əməkdaşlıqdan
A) Razı qaldım
B) Narazı qaldım
C) Qismən razı qaldım

Digər_______________________________________________

4. Sosioloqun tövsiyələrindən
A) Razı qaldım
B) Narazı qaldım

C) Qismən razı qaldım

Digər_____________________________________________

5. Metodistlə əməkdaşlıqdan
A) Razı qaldım
B) Narazı qaldım
C) Qismən razı qaldım

Digər__________________________________________________________

6. Özünüzü müəllim kimi hazır hiss edirdinizmi?
7. Pedaqoji təcrübəyə getmədən öncə düşüncləriniz, gözləntiləriniz.
8. Pedaqoji təcrübəni tamamladıqdan sonra gəldiyiniz nəticə...
9. Universitet təhsili zamanı öyrəndiyiniz tədris olunan Xarici dilin tədrisi Metodika və Ümumi Təhsil Kurrikulumun Əsasları fənlərindən əldə etdiyiniz bilikləri Pedaqoji İnternatura zamanı tətbiq edə bildinizmi?
10. İnternatura zamanı qeyri-fəal və ya psixoloji problemləri olan şagirdlərlə və ya uşaqlarla, pasientlərlə rastlaşdınızmı ?
11. Müasir məktəbdə ən çox rastlaşdığınız problemlər hansılardır
12. Müəllim-şagird münasibətlərində hansı faktları müşahidə etdiniz
13. Şagirdlərdə müşahidə etdiyiniz psixoloji problemlər
14. Məktəb-ailə əməkdaşlığını müşahidə etdinizmi
15. Məktəbdə inkluziv siniflər var idimi
16. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla nə kimi işlər gördünüz
17. Sizcə pedaqoji təcrübə ali məktəb üçün zəruridirmi
18. Siz məktəbə hansı töhfələrinizi verdiniz
19. Pedaqoji təcrübə sizə nə öyrətdi
20. Pedaqoji təcrübə zamanı sizin üçün yadda qalan xatirənizi bölüşə bilərsinizmi
21. İrad və Təklifləriniz

_________________________________________________________________________________
_________________________________________________________________________________
_______________________________________

**10.3. Professor-müəllim heyyətinin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi.**

1) Dərs qrafikinin tərtibi sizi qane edirmi?
2) Tənəffüs fasiləsinin müddəti sizi qane edirmi?
3) Əmək haqqı vaxtında verilirmi?
4) Universitet sizin elmi tədqiqatlarınızı dəstəkləyirmi? (jurnalda məqalələriniz çıxır?)
5) Universitetin texnoloji infrastrukturu (kompüter, internet, və onlayn platformalar ) sizin tədris fəaliyyətinizə necə təsir edir?
6) Tələbələrlə münasibətlərdə universitet tərəfindən dəstək hiss edirsinizmi? (Məsələn, dekan sinifkomları dəyişdirir, məsuliyyətsiz tələbələrə xəbərdarlıq edir)
7) Universitetin akademik mühitini daha da yaxşılaşdırmaq üçün hansı təklifləriniz var?
8) İctimai və elmi fəaliyətiniz universitetin saytında, sosial şəbəkələrdə işıqlandırılırmı?
9) Siz universitetin ictimai tədbirlərinə cəlb edilirsinizmi?
10) Ev və iş həyatının balansını qoruyub saxlamaq üçün Universitetin mənəvi və psixoloji dəstəyini hiss edirsinizmi ?
11) Elektron kitabxana sizi qane edirmi?
12) Bir müəllim kimi güclü tərəfləriniz hansılardır ? (Maksimum 3-ü qeyd edin)

a. peşəkar bacarıqlarım
b. interaktiv tədris və öyrətmə üsullarını tətbiq etmək bacarığım
c. tələbələrlə ünsiyyət qurma bacarığım
d. elmi tədqiqat potensialım
e. praktiki təcrübəm
Digər ............................

13) Bir müəllim kimi zəif tərəfləriniz hansılardır ? (Maksimum 3-ü qeyd edin)

a. tələbələrlə ünsiyyət qura bilməmək
b. dərs prosesi zamanı vaxtı düzgün bölüşdürə bilməmək
c) tələbənin gözləntilərini verə bilməmək
d) dərsə vaxtında hazırlıqlı olmamaq
e) jurnalda düzgün yazı qaydalarına riayət edə bilməmək

Digər ..........................................................................................................................................
..........................................................................

14) Gələcəkdə bacarıqlarınızı hansı üsullarla inkişaf etdirmək istərdiniz? (Maksimum 3-ü qeyd edin)

a) Seminar və təlimlərdə iştirak edərdim
b) Konfranslarda təqdimatlarla və ya dinləyici kimi iştirak edərdim
c) Avropa universitetlərində qazandığım təcrübəni təşkil etdiyim təlimlərdə başqaları ilə bölüşərdim
d) Mütəxəssis kimi təlimlərdə iştirak edərdim
e) Tədqiqat fəaliyyəti ilə məşğul olardım
f) Ölkədə və ya xaricdə təşkil olunacaq təcrübə və mübadilə proqramlarında iştirak edərdim
Digər.................................................................................................................................................
.................

15) Universitetin tələbələri haqqında fikirləriniz? (Maksimum 3-ü qeyd edin)

a) Fəal, öz məqsədlərinə doğru addımlayan
b) Təşəbbüs göstərən
c) Məsuliyyətli və bacarıqlı
d) Öyrənmək həvəsi olmayan, məqsədləri ancaq diplom əldə etməkdir
e) Müstəqil halda öyrənməyə həvəsi olmayan ancaq minimal tapşırıqları yerinə yetirən
f) Dərsdənkənar bir çox fəaliyyətlərlə məşğul olan
Digər.................................................................................................................................................
........................

16) Tələbədə tədris etdiyiniz fənnə qarşı hansı üsullarla maraq və həvəs yarada bilirsiniz? (Xahiş edirik, sizə ən uyğun olan maksimum 3-ü qeyd edin)

a) Tədris fənninin onların gələcək peşə fəaliyyətində rolu ilə bağlı mütəmadi müzakirələr edirik

b) Praktik üsullarla

c) Onlara nəyin necə edilməli olduğu haqda hər tərəfli təlimatlar verirəm

d) Tədrisdə ənənəvi mühazirələrə çox vaxt ayırmayaraq onları qarşılıqlı əlaqələr yaratmağa və təcrübəyə təşviq edirəm

e) Tədris prosesində interaktiv və həvəsləndirici üsullardan istifadə edirəm

f) Dərslərimdə qarşılıqlı fikir mübadiləsi yarada biləcək mühit formalaşdırıram

Digər.................................................................................................................................................................

17) Tələbələri qiymətləndirərkən hansı çətinliklərlə qarşılaşırsız? (Sizə ən uyğun olan maksimum 3-ü qeyd edin)

a) Tətbiq olunan qiymətləndirmə metodları tələbələrin nailiyyət səviyyəsini tam ölçməyə imkan vermir

b) Tələbələr nəzəri materialların öyrənilməsinə kifayət qədər diqqət yetirmirlər

c) Tələbələr məsləhət üçün ayrılmış vaxtdan yararlanmırlar

d) Tələbələr dərsə aid mənbələrdən məlumat əldə etməyə meyilli deyillər

e) Tələbələr sərbəst şəkildə dərs oxumağa kifayət qədər vaxt ayırmırlar

f) Auditoriyalarda internetin olmaması innovativ qiymətləndirmə üsulları tətbiq etməyə maneə yaradır

Digər..........................................................................................................................................

18) Dərslərinizdə hansı tədris metodlarından istifadə edirsiniz? (Sizə ən uyğun olan maksimum 3-ü qeyd edin)

a) Ənənəvi mühazirə/seminar üsulu
b) Praktik tapşırıqlar
c) Müzakirələr (fikir/bilik mübadiləsi)
d) Tematik tədqiqat
e) Qrafik üsullar
f) Qrup işləri və layihələr
g) Problem düşünmə
h) Nəşrlər, məqalələr və müxtəlif məlumat mənbələrindən istifadə edərək
i) Qrup oyunları
j) Təqdimat üsulları

Digər..........................................................................................................................

19) Dərslərinizdə hansı tədris vəsaitlərindən / avadanlıqlardan istifadə etmək zəruridir? (Maksimum 3-ü qeyd edin)

a) Proyektor
b) Multimedia avadanlığı
c) Video materiallar
d) Audio materiallar
e) Kompüterlər
f) İnternet
g) İnteraktiv lövhə

Digər..........................................................................................................................

19. Universitetdə dərsdan kənar olan vaxtınızı necə keçirirsiniz? (Maksimum 3-ü qeyd edin)

a) Elmi tədqiqatla məşğul oluram
b) Tələbələrimə dərsdən əlavə məsləhət verirəm
c) Universtetin ictimai həyatında aktiv iştirak edirəm

d) Həmkarlarımla zaman keçirirəm
e) Özümü inkişafla məşğulam
Digər..........................................................................................................................
20. Tələbələr arasında tədris prosesi haqqında keçirilən sorğuya münasibətiniz?
a) Dəstəkləyirəm, tam obyektiv olmasa da müəyyən məlumat əldə etməyə imkan verir
b) Tamamilə qarşıyam, tələbələr obyektiv qiymət vermək iqtidarında deyillər
c) Fərq etmir, sorğuların hansısa yeniliklər gətirəcəyinə inanmıram
Digər..........................................................................................................................
......................................................
21. Tədris etdiyiniz fənni hər hansı xarici dildə tədris edə bilərsinizmi ?
Bəli ☐ Xeyr ☐
Şərhlər.........................................................................................................................
..........................................
22) Universitetin daxili (mənəvi) mühitini 5 - ballıq sistemlə qiymətləndirin.
Qeyd: 1 “Pis” və 5 “Əla”
23) Rəhbərliyin diqqətinə hansı məsələ və ya problemləri çatdırmaq istərdiniz?
...................................................................................................................................
...................................

**10.4. Tələbələrin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi**

1. Mən tədris aldığım ixtisası özüm seçmişəm
a. Bəli
b. Xeyr (valideynlərimin, dostlarımın və s. məsləhəti ilə)
Digər ..........................................................................................
2. Mən ixtisasımı öyrənməkdən zövq alıram
a. Razıyam
b. Razı deyiləm
Digər ..........................................................................................
3. Mən fərqli bir ixtisas öyrənmək istərdim
a. Razıyam
b. Razı deyiləm
Digər ..........................................................................................
5. Tədris prosesinin keyfiyyətini 5 ballıq sistemlə qiymətləndirin
Digər ..........................................................................................
6. Müəllimlər tədris prosesində mənə dəstək olurlar.
a. Az qismi
b. Çox qismi
Digər ..........................................................................................
7. Müəllimlərin özünəməxsus tədris üslubları var
a. Az qismin
b. Çox qismin
Digər ..........................................................................................
8. Müəllimlər tədris etdikləri fənləri yaxşı bilirlər.
a. Az qismi
b. Çox qismi
Digər ............
9. Müəllimlər tələbələrə ədalətli və obyektiv yanaşırlar.
a. Az qismi
b. Çox qismi
Digər ............

10. Dərs prosesini səmərəli təşkil olunması üçün lazım olan avadanlıqların mövcudluğunu (proyektor, internet, kompyuter) 1-dən 5-ə qədər qiymətləndirin:
Digər ...........
11. Tədris prosesi müxtəlif yeni və maraqlı üsullarla təşkil olunur;
a. Razıyam
b. Razı deyiləm
Digər ...........
12. Müəllimlər tələbələrin araşdırma qabiliyyətlərini inkişaf etdirməyə yardımçı olurlar
a. Az qismi
b. Çox qismi
Digər ...........
15. Universitet bufetində verilən yemək və qiymətlər barədə fikrinizi söyləyin:
a. Çox kefiyyətsiz və baha
b. Keyfiyyətli və baha
c. Çox kefiyyətsiz və normal
d. Keyfiyyətli və normal
c. Bufetə getmirəm
Digər ...........
16. Universitetin təmizlik səviyyəsini 1-5 qədər qiymətləndirin
Digər ...........
17. Universitetin kitabxanasını qiymətləndirin
a. istədiyim kitabları hər zaman tapıram
b. istədiyim kitabları nadir hallarda tapıram
c. Universitetdə kitabxananın olmasını bilmirdim
d. Kitabxanaya getmirəm
Digər ...........
19. Universitetdə keyfiyyət təminatı siyasətini qiymətləndirin
a. bu barədə anlayışım yoxdur
b. Yüksək
c. zəif
Digər ...........
20. Dərs cədvəlinin təşkili 5 ballıq sistemlə qiymətləndirin
Digər ...........
21. İmtahanların təşkili barədə fikrinizi söyləyin:
a. daha çox test imtahanlarının olmasının tərəfdarıyam
b. daha çox şifahi imtahanların olmasının tərəfdarıyam
c. daha çox yazılı imtahanların olmasının tərəfdarıyam
Digər ...........
24. Dekan-tələbə münasibətlərini 1-5 qədər qiymətləndirin
Digər ...........
25. Tələbə Həmkarlar Təşkilatının fəaliyyətini necə qiymətləndirirsiniz:
a) Tələbə-yönümlü
b) Universitet-yönümlü
c) Fəaliyyətindən məlumatım yoxdur
Digər ...........
26. Tələbə Gənclər Təşkilatınının fəaliyyətini necə qiymətləndirirsiniz:
a) Tələbə-yönümlü
b) Universitet-yönümlü
c) Fəaliyyətindən məlumatım yoxdur
Digər ...........

## 10.5 Dərslərin Keyfiyyətinin ölçülməsi məqsədi ilə tərtib edilmiş sorğu

1. Sizcə, müəllim effektiv dərs metodundan istifadə edirmi? Niyə?
A) Edir
B) Etmir
C) Qismən

2. Müəlliminiz dərsi maraqlı və motivasiyaedici şəkildə izah edirmi?
A) Bəli
B) Xeyr
C) Qismən

3. Müəllim sizin akademik və şəxsi inkişafınıza necə təsir edib?
A) Müsbət təsiredib
B) Qismən təsir edib
C) Təsir etməyib

4. Müəllimin dərsi izah etmə tərzi aydın və başadüşüləndirmi?
A) Bəli
B) Xeyr
C) Qismən

5. Dərs zamanı praktiki nümunələr və interaktiv üsullardan istifadə olunurmu?
A) Bəli, mütəmadi istifadə olunur
B) Bəzən istifadə olunur
C) Xeyr, istifadə olunmur

6. Müəllim sizi dərs müzakirələrinə cəlb edirmi?
A) Bəli, daim cəlb edir
B) Bəzən cəlb edir
C) Xeyr, cəlb etmir

7. Qiymətləndirmə prosesi şəffaf və ədalətlidirmi?
A) Bəli
B) Xeyr
C) Qismən

8. Müəllimin tələbələrlə ünsiyyəti necədir? Rəftarında nəyi bəyənirsiniz və ya bəyənmirsiniz?
A) Çox yaxşıdır
B) Orta səviyyədədir
C) Qənaətbəxş deyil

9. Müəllim tələbələrin suallarına kifayət qədər vaxt ayırırmı?
A) Bəli, hər zaman
B) Bəzən
C) Xeyr, vaxt ayırmır

10. Sizə akademik və ya karyera ilə bağlı məsləhətlər verirmi?
A) Bəli, tez-tez verir
B) Bəzən verir
C) Xeyr, vermir

11. Qiymətləndirmə meyarları dərsin əvvəlində izah edilibmi?
A) Bəli, tam izah edilib
B) Qismən izah edilib
C) Xeyr, izah edilməyib

12. Müəllimin qiymətləndirmə üsulları nə dərəcədə şəffaf və obyektivdir?
A) Tam şəffaf və obyektivdir
B) Bəzi hallarda obyektivdir
C) Subyektiv və qeyri-şəffafdır

13. İmtahan və ya tapşırıqların qiymətləndirilməsi ilə bağlı müəllimdən rəy almaq imkanınız varmı?
A) Bəli, hər zaman mümkündür
B) Bəzən mümkündür
C) Xeyr, mümkün deyil

14. Dərs zamanı əldə etdiyiniz biliklərin qiymətləndirilmə üsulları sizə uyğun gəlirmi?
A) Bəli, tam uyğundur
B) Qismən uyğundur
C) Xeyr, uyğun deyil

15. Müəllimin dərslərini daha maraqlı və effektiv etmək üçün nə təklif edərdiniz?
A) Daha çox interaktiv metodlardan istifadə etməlidir
B) Praktiki nümunələr və real həyatdan misallar daha çox olmalıdır
C) Heç nə dəyişməsinə ehtiyac yoxdur

16. Müəllimin dərs metodikasında dəyişiklik etmək şansı olsaydı, nəyi dəyişməsini istərdiniz?
A) Dərsləri daha əyləncəli və interaktiv etməsini
B) Daha çox əlavə resurs və materiallardan istifadə etməsini
C) Dərs metodikası kifayət qədər yaxşıdır, dəyişiklik lazım deyil

17. Universitetdə müəllim-tələbə münasibətlərini gücləndirmək üçün nə kimi təşəbbüslər ola bilər?
A) Daha çox akademik məsləhətləşmə və məsləhət saatlarının artırılması
B) Tələbələrlə qeyri-rəsmi görüşlər və seminarlar
C) Dəyişiklik lazım deyil

18. Müəllim tələbələrə ədalətli və bərabər yanaşırmı?
A) Həmişə ədalətlidir
B) Bəzi hallarda ədalətlidir
C) Ədalətli deyil

19. Müəllim emosional vəziyyətini dərs prosesinə necə təsir etdirir?
A) Həmişə pozitiv atmosfer yaradır
B) Bəzən emosional vəziyyəti dərsə təsir edir
C) Çox vaxt mənfi təsir edir

20. Ümumilikdə, bu müəllimləri necə qiymətləndirərdiniz? (1-dən 10-a qədər)
A) 8-10 (Yüksək)
B) 5-7 (Orta)
C) 1-4 (Aşağı)

21. Hansı müəllimlərin rəftarı və metodikası xoşunuza gəlir?

Digər____________________________________________________

### 10.6 İmtahanların təşkili ilə bağlı sorğu

1. İmtahanın təşkili sizi qane etdimi?

A) Bəli
B) Xeyr
C) Qismən
D) Digər____________________________________________________

2. İmtahan cədvəlləri vaxtında elan edildimi?

A) Bəli
B) Xeyr
C) Qismən
D) Digər____________________________________________________

3. İmtahana ayrılan saat sualları cavablandırmaq üçün kifayət idimi?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər________________________________________________________

4. Sizcə, imtahan sualları fənnin məzmununa uyğun idimi?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər________________________________________________________

5. İmtahanın qiymətləndirilməsi obyektiv aparıldımı?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər________________________________________________________

6. İmtahan sessiyası ilə bağlı hansı çətinliklərlə qarşılaşdınız?
Digər________________________________________________________

7. İmtahan otaqları və şəraiti (sakitlik, nizam-intizam, işıqlandırma, havalandırma) imtahana uyğun idimi?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər________________________________________________________

8. Sizcə, imtahan sualları fənn proqramına uyğun idimi?
A) Tan uyğun idi
B) Qismən uyğun idi
C) Uyğun deyildi
Digər________________________________________________________

9. Qiymətləndirmə meyarları sizə əvvəlcədən izah olunmuşdumu?
A) Bəli

B) Xeyr
C) Qismən
Digər______________________________________________________
10. Müəllimlər imtahan zamanı bütün tələbələrə eyni münasibət göstərirdilərmi?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər______________________________________________________

11. İmtahan sessiyasının qiymətləndirilməsində hər hansı ədalətsizliklə rastlaşdınızmı?
A) Bəli (Aşağıdakı "Digər" bölümümündə səbəbini izah edin)
B) Xeyr (Aşağıdakı "Digər" bölümümündə səbəbini izah edin)
C) Qismən (Aşağıdakı "Digər" bölümümündə səbəbini izah edin)
Digər______________________________________________________

12. İmtahandan əvvəl keçilən təkrar dərslər və ya konsultasiyalar faydalı oldumu?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər______________________________________________________

13. Apellyasiya prosesi ədalətli və şəffaf şəkildə aparılırmı?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər______________________________________________________

14. Sizcə, müəllimlər qiymətləndirmədə obyektiv idilərmi?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər______________________________________________________

15. Sizə imtahana hazırlıq üçün kifayət qədər tədris materialı təqdim olunmuşdumu?
A) Bəli
B) Xeyr
C) Qismən
Digər______________________________________________________

16. İmtahanın gedişatı zamanı elektron cihazlar və konspektlərin qarşısı alınması üçün görülən tədbirlər qənaətbəxş idimi?
Digər______________________________________________________

17. İmtahan zamanı hansı qayda pozuntuları ilə qarşılaşmısınız?
Digər______________________________________________________

18. İmtahan otağına təhkim edilmiş nəzarətçilərin fəaliyyəti sizi qane etdimi? (Nəzarətçinin ad və soyadını yazmaqla fikirlərinizi açıq ifadə edə bilərsiniz)
Digər______________________________________________________

19. İmtahan prosesi ilə bağlı ən çox narahat olduğunuz məqamlar nə idi?
Digər______________________________________________________

20. Gələcəkdə imtahan sessiyasının daha yaxşı təşkili üçün nə təklif edirsiniz?
Digər______________________________________________________

21. İmtahan suallarının forması ilə bağlı nəyi dəyişmək istəyərdiniz? (Açıq cavab)
Digər______________________________________________________

22. İmtahanlarla bağlı əlavə şərhləriniz və tövsiyələriniz varmı?
Digər______________________________________________________

### 10.7 Kitabxana rəy sorğusu

1. **Kitabxana haqqında məlumatı əsasən haradan alırsınız?**

a) Rəsmi sayt və elan lövhələri

b) Sosial şəbəkələr (Instagram, Facebook və s.)

c) Tanışlar və müəllimlər vasitəsilə

d) Universitetdən

**2. Kitabxanadan tez-tez istifadə edirsinizmi?**

a) Hər gün

b) Həftədə bir neçə dəfə

c) Ayda bir neçə dəfə

d) Demək olar ki, heç vaxt

**3. Kitabxanada ən çox hansı xidmətlərdən istifadə edirsiniz?**

a) Kitab götürmək/oxumaq

b) Elektron resurslardan istifadə

c) Sakit oxu zalında dərs oxumaq

d) Kompüter və internetdən istifadə

**4.Kitabxanadakı kitab fondu sizin ehtiyaclarınızı qarşılayırmı?**

a) Tamamilə qarşılayır

b) Qismən qarşılayır

c) Çox az qarşılayır

d) Heç qarşılamır

**5.Kitabxana əməkdaşının sizə qarşı davranış səviyyəsini necə qiymətləndirirsiniz?**

a) Çox yüksək

b) Yaxşı

c) Orta

d) Zəif

**6.Kitabxananın iş saatları sizin üçün nə dərəcədə əlverişlidir?**

a) Tamamilə əlverişlidir

b) Qismən əlverişlidir

c) Dəyişməsini istərdim

d) Heç əlverişli deyil

**7.Kitabxanada internet və texnoloji avadanlıqlardan istifadə imkanları sizi qane edirmi?**

a) Bəli, tam qane edir

b) Qismən qane edir

c) Xeyr, qane etmir

d) Heç istifadə etmirəm

**8.Kitabxanada istədiyiniz kitabı tapmaq asandırmı?**

a) Həmişə asan olur

b) Bəzən çətinlik çəkirəm

c) Çox vaxt tapa bilmirəm

d) Heç cəhd etməmişəm

**9.Kitabxanada oxu mühiti necədir? (sakitlik, işıqlanma, rahatlıq və s.)**

a) Çox yaxşı

b) Yaxşı

c) Orta səviyyədə

d) Qənaətbəxş deyil

**10.Kitabxana ilə bağlı ümumi razılığınızı necə ifadə edərdiniz?**

a) Tam razıyam

b) Qismən razıyam

c) Razı deyiləm

d) Heç razı deyiləm

11.**Kitabxanada hansı əlavə xidmətlərin olmasını istərdiniz?**

a) Elektron kitab bazası

b) Qrup şəklində oxu/iş otaqları

c) Audiokitab və podcast bölməsi

d) Tədbir və seminar otaqları

12.**Kitabxanada hansı mövzuya dair kitablara müraciət edirsiniz?**

a) Elm və texnologiya

b) Ədəbiyyat və romanlar

c) Tarix və fəlsəfə

d) Psixologiya və şəxsi inkişaf

e) Tədris olunan fənlərə dair

13.**Kitabxanda təşkil olunmuş "Kitab diskusiya" klubunda fəal iştirak edirsinizmi?**

a) Bəli, fəal iştirak edirəm

b) Bəzən iştirak edirəm

c) Əgər vaxtım olsa, iştirak edərəm

d) Vaxtım yoxdur

14.**Kitabxanada çapdan daha çox hansı formatda materiallara üstünlük verirsiniz?**

a) Kağız (ənənəvi) kitablar

b) PDF və ya e-kitablar

c) Audiokitablar

e) print materiallar

15.**Sizcə kitabxanada ən çox nəyə ehtiyac var?**

a) Yeni kitablarla təminat

b) Daha uzun iş saatları

c) Sürətli internet və texniki avadanlıqlar

d) Oxucular üçün rahat mühit

16.**Kitabxana ilə bağlı təklif və fikirləriniz nəzərə alınırmı?**

a) Bəli, mütəmadi sorğular aparılır

b) Bəzən nəzərə alınır

c) Əksəriyyətində dəyişiklik olmur

d) Heç bir fikrim yoxdur

17.Kitabxana fəaliyyətinizi bir neçə cümlə ilə necə ifadə edərdiniz? (Açıq sual)

______________________________________________________________________________

______________________________________________________________________________